# Azərbaycana xoş gəlmisiniz!

**Dünyanın nəbzi Bakıda döyünür. Azərbaycan qlobal iqlim tədbirinə - COP29-a evsahibliyi edir. Sessiyanın gedişindən məlum olur ki, onun əhəmiyyətini əngəlləmək üçün aparılan bütün təbliğat və təxribatlar boşa çıxıb. Dünyanın əksər dövlətləri, xüsusən Azərbaycana dost olan ölkələr tədbirdə yüksək səviyyədə təmsil edilirlər.**

İnsanlar arasında olduğu kimi, dövlətlərin də münasibətlərində dostluq və ya düşmənçilik olur. Məsələn, götürək Fransanı. Bu ölkə son illər, daha doğrusu, Qarabağ Zəfərindən sonra Azərbaycana qarşı, yumşaq desək, ədalətsiz mövqedə dayanır. Özünü Avropa demokratiyasının müəllifi sayan bu Qərb dövləti COP29-un ölkəmizdə keçirilməsi barədə qərar qəbul olunandan indiyədək özünə yer tapa bilmir. Üstəlik, bir sıra digər Avropa ölkələrini də ardınca aparır. Amma nə fayda?! COP29 yüksək səviyyədə keçirilir. Dünyanın hər tərəfindən dövlət başçıları, hökumət rəhbərləri, beynəlxalq qurumların, qeyri-hökumət ekoloji təşkilatlarının nümayəndələri Azərbaycana toplanıb. Təsadüfi deyil ki, COP-un təşkilatçısı olan BMT-nin Baş katibinin müavini və Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinos bu tədbirin ölkəmizdə keçirilməsini yüksək qiymətləndirib. Onun sözlərinə görə, Azərbaycanla BMT arasında əməkdaşlıq hər zaman güclü olub: "Çünki ölkəniz həmişə təşkilatımızın işində fəal iştirak edib. Bu gün hətta bir çox təşəbbüslər sayəsində konstruktiv tərəfdaşlıq daha da yüksəlib. COP29-un təşkilində BMT-nin Azərbaycana tam etimadı var. İqlim gündəliyi bu günlərdə BMT-nin əsas prioritetlərindən biridir".

Gürcüstan bizim yaxın qonşumuz və etibarlı tərəfdaşımızdır. Bu gün qonşu ölkədə Qərbin müdaxiləsi nəticəsində daxili vəziyyət gərgindir. Buna baxmayaraq, Gürcüstanın Baş naziri İrakli Kobaxidze COP29-da iştirak etmək üçün ölkəmizə gəlmişdir. Üstəlik, baş nazir görüş zamanı Prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etmişdir. Bu fakt bir daha onu göstərir ki, çətin anlar belə, ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə mane ola bilmir.

Belarus müstəqilliyimizin ilk illərindən Azərbaycanla sabit dostluq münasibətləri saxlayan ölkədir. Bu slavyan ölkəsi torpaqlarımız işğal altında olarkən həmişə bizim yanımızda olub, ədaləti müdafiə edib. İki ölkə arasında yüksək siyasi əlaqələrlə yanaşı, dinamik şəkildə inkişaf edən iqtisadi əlaqələr də mövcuddur. Son dövrlər ümumi ticarət dövriyyəmizin 41 faiz artması bunun nəticəsidir. Elə buna görədir ki, COP29 çərçivəsində Prezident İlham Əliyevlə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko görüşəndə ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsinin perspektivlərini də müzakirə etmişlər.

Serbiya ilə Azərbaycan arasında münasibətlər dinamik şəkildə inkişaf edir. İki ölkənin dövlət başçısı arasında olan dostluq isə bu inkişafı daha da dərinləşdirir. Qarabağın işğalı dövründə də Serbiya hər zaman ölkəmizin haqq səsinə səs vermiş, beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir.

İndi budur, Serbiyanın lideri COP29-da iştirak üçün Bakıdadır. Prezident İlham Əliyevlə görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərdən məmnunluq ifadə olunmuş, yüksəksəviyyəli qarşılıqlı səfərlərdə intensivlik qeyd edilmişdir. Beynəlxalq təşkilatlarda əməkdaşlıq, həmçinin sənaye, infrastruktur, sərmayələr, bərpaolunan enerji sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında bu tədbiri boykot edənlərə bildirmişdir: "Mənim sonuncu mesajım o dairələrədir ki, onlar demək olar, artıq bir ildir boykotu təşviq edirlər. Onlar əllərində olan bütün vasitələrdən istifadə edirlər ki, Bakıdakı COP29-a qarşı boykot kampaniyası həyata keçirilsin. Onlara pis xəbərim var: bizim 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçımız var. Onların arasında 80 prezident, vitse-prezident və baş nazir var. Beləliklə, dünya Bakıda toplaşıb və biz dünyaya deyirik ki, "Azərbaycana xoş gəlmisiniz!"

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan.-2024.- 13 noyabr (№ 249).- S.15.